


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 16 (24.153)

27 yanvar 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Fransanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələrin qurulmasının keçən il 30 illiyinin qeyd olunduğunu vurğuladı. Dövlətimizin başçısı ötən müddət ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti qarşıdakı dövrün ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq baxımından daha da səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Səfir Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Fransaya səfərini xatırladı, ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan ilə Fransa arasında münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı regional məsələlərə də toxunuldu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın əsassız iddialar irəli sürdüyünü qeyd edərək, bu iddiaların tamamilə yalan və cəfəng olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir. Dekabrın 12-dən etibarən 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yol ilə hər iki istiqamətdə keçidi təmin olunub.

Dövlətimizin başçısı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasının və ölkəmizin bu yataqlar üzərində daimi monitorinqinin təmin edilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev səfirə Azərbaycandakı diplomatik fəaliyyəti dövründə uğurlar arzuladı.

## Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul edib.

Səfir Xristos Kapodistrias etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin ölkələrimizi birləşdirdiyini və bütöv bir regionun inkişafına töhfə verdiyini, ümumi maraq kəsb edən layihə olduğunu bildirdi. Həmçinin Yunanıstanın Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynadığını qeyd etdi.

Prezident İlham Əliyev Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılış mərasimində iştirakını məmnunluqla xatırladı və bu layihənin Avropanın enerji təhlükəsizliyinə töhfə verməsinin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi.

Səfir Xristos Kapodistrias Azərbaycanda fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirdi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etdi. Diplomat, xüsusilə elm, təhsil, mədəniyyət, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğuladı.

Görüşdə, həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı məsələlərinə də toxunuldu, Yunanıstanın Azərbaycanın hər iki təsisatla əlaqələrinin genişləndirilməsini dəstəklədiyi qeyd olundu.

Söhbət zamanı regional məsələlərə toxunularaq, Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr haqqında məlumat verildi, yolun guya bağlı olması barədə Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu bildirildi.



Dövlətimizin başçısı qeyd etdi ki, dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki şəxslərin və mülki yüklərin, 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yolla hər iki istiqamətdə hərəkəti təmin olunub.

## Prezident İlham Əliyev Meksikanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyeronun etimadnaməsini qəbul edib.

Səfir Mariya Viktoriya Romero Kabalyero etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında coğrafi məsafənin uzaq olmasına baxmayaraq, əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu bildirdi.

Səfir də ölkələrimiz arasında əməkdaşlıq üçün çoxlu imkanların mövcudluğunu qeyd etdi, xüsusilə enerji, investisiyalar, elm, təhsil və digər sahələrdə geniş potensialın olduğunu vurğuladı.



Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə də toxunuldu.

Səfir Meksikanın Qoşulmama Hərəkatı yanında müşahidəçi dövlət olaraq Azərbaycanın Hərəkatın sədri kimi təşəbbüslərini izlədiyini və ölkəsinin "Cənub-Cənub" əməkdaşlıq prosesini dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini qeyd edərək, ölkəmizin Hərəkatın sədri olaraq onun təsisatlanması istiqamətində, o cümlədən Hərəkatın Gənclər Şəbəkəsinin və Parlament Şəbəkəsinin yaradılması təşəbbüsləri ilə çıxış etdiyini bildirdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.

Səfir Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı.

**AZƏRTAC**



# Xarici ticarət iştirakçıları ilə görüş

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində təşkil olunan görüşdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 70-ə yaxın sahibkar və Baş İdarənin aidiyyəti struktur bölmələrinin rəhbərləri iştirak edib.

Naxçıvan Baş Gömrük İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Vüqar Əliyev Naxçıvan Muxtar Respublikasında gömrük işinin səmərəli təşkili, xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində son dövrdə görülən işlər, tətbiq edilən yeni layihələr barədə məlumat verib.

Vurğulanıb ki, şəffaflığın, məmnuniyyətin yüksəldilməsi, rəqəmsallığın genişləndirilməsi, büdcə daxilolmalarında dayanıqlılığın təmin edilməsi, güclü və güvənli hüquq-mühafizə tədbirlərinin həyata keçirilməsi Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən olunmuş fəaliyyət proqramına uyğun strateji hədəflərdir. Naxçıvan Baş Gömrük İdarəsi gündəlik iş fəaliyyətini xarici ticarət iştirakçıları ilə açıq dialoq formasında qurur. Biznes subyektlərinin və vətəndaşların qəbulu, onların müraciətlərinə qanunamüvafiq qaydada baxılması və cavablandırılması işi gündəlik olaraq nəzarətdə saxlanılır. Xarici ticarət iştirakçıları ilə keçirilən belə görüşlər gömrük-biznes münasibətlərində yaranan çıxan məsələlərin müzakirəsi və həlli baxımından əhəmiyyətlidir.

Sonra görüşdə “Şəxsi Hesab Vərəqəsi” elektron xidməti ilə bağlı sahibkarlara məlumat verilib. Vurğulanıb ki, “Şəxsi Hesab Vərəqəsi” elektron xidməti idxal-ixrac əməliyyatları zamanı gömrük bəyannamələri üzrə hesablamaların, gömrük və digər ödənişlərin uçotunun vahid platforma üzərindən reallaşdırılmasına imkan verir. Pilot variantda istifadəyə verilən yeni elektron xidmətə ölkə üzrə hələlik 170 sahibkarlıq subyekti qoşulub, onlardan 3-ü Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən şirkətdir. Tədbirdə Naxçıvandan olan daha 6 xarici ticarət iştirakçısının yeni elektron xidmətə qoşulacağı bildirilib.

***Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin mətbuat xidməti***

---

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev, eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.*

# Azərbaycan ədəbi-bədii fikrinin əzəmət və sənətkarlıq örnəyi

Azərbaycan ədəbiyyatının ideya-məzmun və bədii-estetik cəhətdən inkişaf edib zənginləşməsində görkəmli söz ustadı Mir Cəlal (1908-1978) yaradıcılığının istisnasız və özünəməxsus yeri var. XX əsrin 30-cu illərindən sonra Azərbaycan nəsrinin bədii istiqamətini təyin etməkdə Mir Cəlal yaradıcılığı çox mühüm rol oynamışdır. Onun qələmindən çıxan zəngin yaradıcılıq nümunələri Azərbaycan xalqının müxtəlif ictimai-tarixi mərhələlərdə psixoloji-mənəvi yaşantılarını, üzləşdiyi tarixi hadisə və prosesləri və sair öyrənmək üçün qiymətli bədii məxəz rolunu oynayır. Görkəmli yazıçı “Dirilən adam” (1934-1935), “Bir gəncin manifesti” (1939), “Açıq kitab” (1941), “Yaşıdlarım” (1946-1952), “Təzə şəhər” (1948-1950), “Yolumuz hayanadır” (1952-1957) kimi sanballı romanların müəllifi olduğu kimi, “Badam ağacı”, “Vətən yaraları” kimi ciddi üslubda yazılmış hekayələrin, “Hakim Cinayətov”, “Anket Anketov”, “İclas qurusu” kimi satirik-yumoristik əsərlərin müəllifi kimi də böyük şöhrət qazanıb. Onun çoxsaylı əsərləri həmişəyaşar sənət nümunələri olaraq ədəbiyyat tariximizi və bədii söz xəzinəmizi zənginləşdirmişdir.



Görkəmli yazıçı və əvəzsiz alim Mir Cəlal bütün ruhu ilə milli məfkurəli bir şəxsiyyət idi. Xalqının faciəli həyatını özünün şəxsi həyatında yaşayan ədib bu faciələri ədəbi yaradıcılığında mükəmməl şəkildə əks etdirmiş, onu doğuran səbəbləri tənqid və ifşa edərək xoşbəxt gələcəyini arzulamışdır. Baxmayaraq ki, sovet dövrünün ən görkəmli yazıçı və alimlərindən olan Mir Cəlalın elmi və bədii yaradıcılığında milli mündəricə başlıca yer tutur. Görkəmli ədibin milli məfkurəli bir yazıçı olması onun yaratdığı obrazların mənəviyyatında, ruhunda, ideyalarında, əxlaqı və dəyərlərində, Vətənə, xalqa, ölkəyə münasibətində, dilində, dinində, imanında özünü əks etdirirdi. Vətənə dərin məhəbbət bəsləyən böyük yazıçının çoxsaylı hekayələrində Vətənə və xalqa məhəbbət, onun gələcəyinə cavabdehlik, ümummilli taleyüklü mətləblər başlıcalıq təşkil edir. Böyük yazıçımızın əsərləri, eyni zamanda satira və yumorun ən uğurlu nümunələrini yaratmaqla bərabər, bir sıra aktual məsələ və mətləbləri tənqid və ifşa etmişdir. XX əsrin 30-cu illərindən yeni ictimai-iqtisadi formasiya və siyasi ideologiyanın fəal həyat mövqeyi qazanması ilə əlaqədar yeni insan surəti, yeniləşdirici, qurucu insan xarakteri yaratmağa başlayan görkəmli yazıçı öz obrazlarını yaradarkən onun milli mənsubiyyətindən irəli gələn keyfiyyətləri də əks etdirməyi qarşısına məqsəd qoymuş və öhdəsindən müvəffəqiyyətlə gəlmiş, ən tipik və yaddaqalan insan xarakterləri yaratmağa nail olmuşdur.

Görkəmli yazıçı bütün varlığı ilə millətinə bağlı ədəbiyyat nəhəngi idi və ideologiyanın tələb etdiyi insan surətlərini yaradarkən milli keyfiyyətlərə həssas münasibət göstərirdi. Yazıçının yaradıcılığında şəxsi tərcümeyi-halına yaxınlığı ilə seçilən, əsl sənətkarlıq məharəti ilə ərsəyə gələn, XX əsrin 17-20-ci illərində Azərbaycanda baş verən ictimai-tarixi hadisələrə həsr olunan və yazıçıya böyük şöhrət qazandıran “Bir gəncin manifesti” (1938) əsərində ədibin çox böyük ustalıqla yaratdığı Bahar surəti nəinki Azərbaycan ədəbiyyatı tarixində, həm də dünya ədəbiyyatında yaradılmış uşaq obrazları arasında öz estetik təsiri ilə qəlbləri fəth edən əbədiyaşar bir surətdir. Bu əsərin digər tərəfdən əhəmiyyəti ondadır ki, Mir Cəlal əsərdə həmin dövrlə əlaqədar bir sıra gerçəkləri əks etdirmişdir. Fikrimizcə, adından tutmuş yaşı və taleyinə qədər Bahar surəti cəmi 23 aylıq qısa bir “bahar ömrü” yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin tarixi taleyini, Azərbaycan xalqının qəlbinə çəkilən müstəqillik duyğularının solan aqibətini əks etdirir.

Ədibin konkret ictimai-tarixi şəraitdə psixoloji-mənəvi eybəcərlik kimi təhlil və təqdim etdiyi bürokratçılıq, inzibatçılıq və sair kimi xarakter xüsusiyyətlərini ümumiləşdirdiyi “Gəldiyevçilik” fəlsəfəsi və xarakteri, ümumiyyətlə, sovet ideologiyasının – “sovetizm”in tipikliyi kimi nəzərə çarpır. Bütün həyati məsələləri, hətta ailə-məişət məsələlərini inzibatçılıqla həll və idarə etməkdən zövq duyan sosial-psixoloji xəstələr – psixopat “iclas quruları” (“İclas qurusu”) mətnaltında fikirlərini uğurla nümayiş etdirməyə müvəffəq olan Mir Cəlal yaradıcılığında dövrün ideoloji inkişaf tezisinin yaratdığı ictimai-mənəvi naqislik kimi səciyyə tapır. “Təzə toyun nəzakət qaydaları” əsərində yazıçı “Məhv olsun köhnə qaydalar!” şüarı ilə milli davranış, xarakter, adət-ənənə, hətta ana dilinin daşlaşmış ifadələrinə qarşı amansız və kor-korana mübarizə səylərini yanğı ilə ifşa və tənqid etmişdir. “Allah sizdən razı olsun” yerinə “Təbiət sizdən razı olsun”, ümumən “Allah”ın əvəzinə “təbiət”, “təbiətin gizli qüvvələri” ifadəsinin işlənməsi, habelə milli adət-ənənələrə zidd davranışların “təzə nəzakət qaydaları” olaraq kodekslərə çevrilməsi milli ruhlu yazıçı tərəfindən ikrahla qarşılanmış, yeni qurulmuş Şura cəmiyyətinin yeni dəbi “təzə toy” olaraq adlandırılmış və bu “yeniliklər”in gətirəcəyi mənəvi eybəcərlik dilimizdəki “toy tutmaq” anlamında mənalandırılmışdır. Ümumiyyətlə, həmişə öz estetik idealına sadiq sənətkar sovet cəmiyyətinin ictimai eybəcərliyi olan ideoloji robotluğa tənqidi münasibət bəsləmiş, bunu bədii problem səviyyəsinə qaldırmağa nail olmuşdur.

Görkəmli yazıçı Mir Cəlalın ədəbi tənqiddə “həqiqətin üzünə dik baxan əsər” (akademik Məmməd Cəfər) kimi yüksək qiymətləndirilən “Açıq kitab” (1941) romanında müəllif çox uğurla yaradılmış “Əzməsən, əziləcəksən, ayaqlamasan, ayaqlanacaqsan… Güzəran, mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar” kimi həyat fəlsəfəsi ilə yaşayan Gəldiyev obrazı və onun kimi insanların varlığı fonunda əslində “ali insan” yaratmaq əvəzinə “naqis insan” yaratmış konkret ideologiyanın ortaya çıxardığı ictimai-mənəvi naqisliyi, şikəstliyi təqdim və tənqid edir. İctimai mühitdə Gəldiyevlərin var olması nəhəng yazıçı tərəfindən həm də ən qorxulu hal olan mövcud ictimai tərbiyə qanunlarına münasibəti ifadə edirdi. Çünki Kəmtərovlar ailəsini, Anket Anketov, Qədir, Kərim Gəldiyev kimi “ideorobotları”, dayaz adamları və ailələri mövcud cəmiyyətin özü, onun tərbiyə və təlim dəyərləri, ideoloji tələbləri yaradırdı. Bununla da Mir Cəlal, əslində, müasir cəmiyyətin tərbiyə maşınının yaratdığı şil-şikəst, inzibatçı, hissiz, duyğusuz, altruist “sovet insan tipi”nə qarşı tənqidi münasibəti ifadə edir. Akademik Məmməd Cəfər yazırdı: “Açıq kitab” canlı bir insan kimi dilə gəlib var səsilə və ən gözəl bədii əsərlərə xas olan coşqun bir həyəcanla oxucularını xəbərdar edir: Gəldiyevləri tanıyın, bizim azad həyatımızı və mədəniyyətimizi bu canavarlardan qoruyun, Gəldiyevlərə hər zaman, hər yerdə amansız olun, mərhəmətsiz olun!”

Milli ruhlu yazıçının əsərlərində xalq həyatı və milli mənəviyyatı, azərbaycanlı xarakteri özünün bədii əksini tapmaqla Azərbaycançılıq mövqeyini qətiyyətlə nümayiş etdirirdi. Totalitar sovet rejiminin milli xarakterə zidd, assimilyator xüsusiyyətləri nəhəng söz ustadının böyük ustalıqla yaratdığı milli xarakterlər işığında təkzib olunurdu. Dövrün tərbiyə edib ortaya çıxardığı Kərim Gəldiyev obrazının simasında yazıçı bu cür insanları yaradan və hər yerdə onların dayaz fikirlərini, duzsuz çıxışlarını, mülahizələrini təqdir edən, Kərim Gəldiyev, Verdiyev və Qədir Qurd oğlu kimi sırtıq, dayaz ictimai “qurdlar”ı rəhbərliyə gətirən və onların əlilə baş kəsən, taleləri həll edən tipləri göstərməklə qorxunc ictimai-siyasi qüvvəni təqdim etmişdir. Mir Cəlal öz sənətkar ustalığı ilə bu mənfi tendensiyanı, zərərli tərbiyəni, “37-ci il patologiyasını” ortaya çıxaran tendensiya olaraq təqdim edərək cəmiyyətə ciddi xəbərdarlıq ünvanlamışdır. Böyük yazıçı, fikrimizcə, yaradıcılığında zahiri planda sovetizmin tələblərinə xoş gələn ideoloji məsələləri qaldırsa da, alt planda daha çox özünəməxsus millilik amilini irəli çəkmişdir. Bu mənada, milli hissiyyatlı yazıçımız kosmopolit sovet xarakterlerini darmadağın edərək milli insan xarakterini təqdir etdiyini öz əsərlərinin mətnaltı anlamında ifadə etmişdir.

Realizmin nəhəng tədqiqatçılarından olan və böyük ədəbiyyatşünas alim kimi geniş şöhrət qazanan Mir Cəlal satirik-yumoristik nəsrin inkişafında böyük xidmətlər göstərmiş, “İclas qurusu”, “Hakim Cinayətov”, “Anket Anketov” və başqa əsərlərilə bədii nəsrdə gülüşün yeni məzmunda zənginləşməsi və ictimai mübarizə qüdrəti qazanmasına öz töhfələrini vermişdir. Özünəməxsus ciddiyyəti ilə tanınan “Bir gəncin manifesti” əsərində Misterin timsalında Azərbaycanın sərvətlərinə göz dikmiş işğalçı qüvvələrin mənfur niyyətləri yazıçı yumoru ilə tənqid və ifşa olunmuşdur. Qüdrətli yazıçı işğalçıları xalqın ən adisinin vətənpərvərliyi və qətiyyəti qarşısında acız və xəcalətli



qoyur. Misterin həm sürücü tərəfindən ələ salınması, həm də Sona arvad tərəfindən bazarda qətiyyətlə rədd edilməsi kasıblığa və gözüqıpıqlığa məhkum edilməsinə baxmayaraq, Azərbaycan insanının vətənpərvərliyi, oyanıqlığı, cəsarəti və yadellilərə qarşı nifrəti kimi təcəssümünü tapmışdır. Ondan son və ən qiymətli mirası olan “Yusif-Züleyxa” xalçasını hər nə yolla olursa-olsun, almaq istəyən yadelliyə qarşı “İtə ataram, yada satmaram”, – deyən Sona məğrur və qeyrətli ana azərbaycanlı anaların ümumiləşmiş, əzəmətli obrazı olaraq xarici işğalçılığa qarşı qətiyyətlə dayanan əsl vətənpərvər bir sima kimi canlanır. Fikrimizcə, yazıçı məharətlə davranaraq xalçanı “Yusif-Züleyxa” adlandırmaqla xalqın milli-mənəvi dəyərləri və mirasına möhtəşəm əhd-peymanı, sədaqəti və qoruyuculuğu mənalandırmışdır.

Ana dilini mükəmməl bilən və onun zənginliyinə arxalanan sənətkarın olduqca sadə, yığcam, dolğun və təsirli dili var. Böyük vətənpərvər yazıçı elmi yaradıcılığında da millik və Azərbaycançılıq amilini həmişə izləmiş, xalqın milli dəyərlərinin unutdurulduğu bir zamanda böyük Azərbaycan şairi Füzulidən və onun ana dilində yaratdığı əsərlərinin poetik qüdrətindən bəhs etmiş, ana dilinə məhəbbət hisslərini geniş anlamda ifadə edərək xalqına ləyaqətlə xidmət etmişdir.

*Bir sözlə, Mir Cəlal səmimi sevgi ilə sevilən, oxunan və həmişə təsiri duyulan bir sənətkardır. Onun sənətkarlığı bədii təhlilə sığmayacaq dərəcədə zəngin və peşəkar, inadla təsdiqini tapacaq qədər dəqiq və danılmazdır. Mirzə Cəlil məktəbini özünün məharətli yazıçılıq qabiliyyəti və sənətkarlığı ilə inkişaf etdirən böyük yazıçımız Mir Cəlal həm də Azərbaycançılıq ideyalarına uğurla xidmət göstərmiş, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini həmişə uca tutmuşdur. Onun əsərləri Azərbaycan xalqına sevgini və Azərbaycançılığı təlqin və təbliğ etdiyinə görə Azərbaycançılığın açıq kitabı olaraq gələn nəsillər tərəfindən sevilərək oxunacaqdır.*

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent***

---



# “Açıq qapı” günü keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən Şahbuz Rayon Məhkəməsinin inzibati binasında “Açıq qapı” günü keçirilib.

“Açıq qapı” gününün keçirilməsində məqsəd vətəndaşların daha çox müraciət etdiyi ədliyyə fəaliyyəti ilə bağlı hüquqi yardımların göstərilməsi, onların maarifləndirilməsi, problemlərinin həll olunmasında onlara peşəkar dəstəyin göstərilməsidir. Gün ərzində nazirliyin bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müraciət edən vətəndaşların problemləri dinlənilərək onlara qanunamüvafiq məsləhətlər verilib, həlli mümkün olan məsələlərə dəstək göstərilib.

Qeyd edək ki, “Açıq qapı” günlərinin keçirilməsi ədliyyə sahəsində aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin ardıcıl davamıdır. Məlumat üçün bildirək ki, “Açıq qapı” günlərinin davamlı olaraq muxtar respublikanın digər şəhər və rayonlarında da keçirilməsi nəzərdə tutulmuşdur və bu barədə nazirliyin rəsmi saytında və sosial şəbəkə hesablarında əvvəlcədən məlumat veriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Ötən həftə Bakı şəhərində idim. İşim çox, zamanımsa az olduğundan gedəcəyim ünvanlara yetişməkdə çətinlik çəkirdim. Bunun üçün taksi xidmətindən istifadə etmək qərarına gəldim. Beləliklə, hər dəfə taksi lazım olduqda telefonuma yüklədiyim taksi sifarişi üçün mobil tətbiq proqramı köməyimə çatacaqdı. Həmin gün ilk üz tutacağım ünvan Bakı Sağlamlıq Mərkəzi idi. "Gənclik" metrostansiyasından Bakı Sağlamlıq Mərkəzinə getmək üçün mobil tətbiqdən taksi sifariş etdim.*

*Xidmət sektorlarımız*

# Naxçıvandakı taksi xidməti sərnişinləri qane edirmi?



Telefonda gediş haqqını gördükdə açığı təəccübləndim. Çünki baxmayaraq ki, getdiyim yol 2 kilometrə qədər məsafəni əhatə edirdi, mənə xidmət haqqı, sadəcə, 70 qəpik təklif olundu. Düşündüm ki, çox ehtimal ödənişdə nəsə səhvlik var. Sifarişdən bir neçə saniyə sonra taksi sürücüsü mobil telefonuma zəng edərək qeyd etdiyim ünvanın qarşısında olduğunu dedi. İlk dəfə bu xidmətdən istifadə etdiyim üçün xidmət haqqı ilə bağlı heç bir məlumatım yox idi. Mobil tətbiqin ödəniş barədə səhvlik etdiyini düşünərək sürücüdən xidmət haqqının nə qədər olduğunu yenidən öyrənmək istədim. Əlbəttə ki, mobil tətbiq səhv etməmişdi, gediş haqqı, doğrudan da, 70 qəpik idi. Ondan bir gün əvvəl 2 nəfər üçün avtobusa gediş haqqını 60 qəpik ödəməklə yetişdiyim ünvana, bu gün taksi ilə 70 qəpik ödəyərək üç nəfər gedirdik, özü də mənzil başına rahat və daha tez çatacaqdıq. Marağımı gizlədə bilmədim. Sürücüdən "Gediş haqqının bizim üçün bu qədər sərfəli olması siz sürücüləri qane edirmi?" sualına sürücü "min bərəkət", – deyə cavab verdi. Bu məsələ mənim bir jurnalist kimi diqqətimi çəkdi. Çünki Naxçıvanda olarkən "288" taksi xidmətinə tez-tez müraciət edirəm, xüsusilə də səhər işə gedərkən. Baxmayaraq ki, yaşadığım ünvanla çalışdığım redaksiya arasında 1 kilometr belə məsafə yoxdur, amma taksi xidməti həmin sifarişi hər zaman 2 manat məbləğində dəyərləndirir. Sürücüyə hansı tarif planı ilə çalışdıqlarının maraqlı olduğunu dedikdə "bu nə üçün sizə maraqlıdır?" sualını aldım. Təbii ki, haqlı idi. Naxçıvandan gəldiyimi, taksi xidmətlərinin təklif etdiyi ödənişlərin Bakı ilə fərqli, daha doğrusu müştərilər üçün sərfəli olmadığını və bir jurnalist kimi Naxçıvana qayıdan kimi bununla bağlı bir məqalə hazırlayacağımı dedikdə "belə de, maraqlı mövzudur", – deyə taksi sürücüsü fikrimə münasibət bildirdi. O əlavə etdi ki, burada 4 kilometr məsafəyədək gediş haqqı maksimum 2 manat dəyərində getdiyin məsafəyə görə hesablanır. Yəni əgər sənin qət etdiyin yol 4 kilometrdirsə, o zaman gediş haqqı 2 manat olacaq. Yox, əgər azdırsa, bu da gedilən məsafəyə görə hesablanacaq. Bu məsafə, məsələn, 50 qəpik də ola bilər, 1 manat da. Bu da düşünürəm ki, Bakıda taksi xidmətlərinin çox olmasından irəli gəlir. Getdiyimiz ünvan o qədər uzaq olmadığından bu haqda söhbətimiz, təəssüf ki, yarıda qaldı...

Maraqlı idi, nə üçün Naxçıvanda 10 addımlıq məsafəyə belə xidmət haqqı 2 manatdan az hesablanmadığı halda, Bakıda gediş haqqı bu qədər sərfəli hesablanır? Baxmayaraq ki, istər Naxçıvanda, istərsə də Bakıda yanacağın qiyməti eynidir. Bu haqda taksi xidmətindən istifadə edən sərnişinlərin də fikrini öyrəndik.

Bəs Naxçıvanda yeganə taksi xidməti kimi fəaliyyət göstərən "288 Taksi" Məhdud Məsuliyyətli Cəmiyyəti naxçıvanlıları qane edirmi? Bu barədə ***Cəlal Haqverdiyev*** səmimi fikirlərini bizimlə bölüşdü. O dedi: – Bəlkə də, taksi xidmətinə ən çox müraciət edənlərdən biri mənəm. Hər dəfə özümə söz verirəm ki, zəhmət çəkib, lazım olan yerə marşrutla gedəcəm, amma taksi sifariş etməyəcəm. Bu da məndə bir xasiyyətdir, hər yerə gecikdiyim üçün məcbur taksidən istifadə edirəm. Bəzən "288" nömrəsinə zəng edirəm, telefona cavab verilmir, 8 qəpik kontur gedir. Daha sonra yenidən zəng edirəm, sifarişi götürürlər, telefona neçə dəqiqə sonra bildiriş gəlir ki, filan nömrəli taksi 6 dəqiqəyə ünvana çatacaq. 6 dəqiqə olur 10 dəqiqə. Mən Bakı şəhərində olanda da taksi xidmətlərindən istifadə edirəm, taksi xidmətinə zəng edirsən, zəngini rədd edir, dərhal özü yenidən səninlə əlaqə yaradır. Sifarişi verirsən, telefonu söndürməmiş sənə artıq bildiriş gəlir, bildirişi oxuyub bitirməmiş taksi sürücüsü zəng edir ki, dediyiniz ünvandayıq. İnanın, həmin taksi xidmətlərinin sürətinə yetişmək olmur. Naxçıvanda isə nə xidmət məni qane edir, nə də gediş haqqı.

Bu məsələ ilə bağlı taksi sürücülərinin fikirlərini də öyrəndik. Sürücü ***Seymur İsmayılov*** dedi ki, illər öncə 34 min 400 manata taksi lisenziyalı "NAZ Lifan" avtomobili aldım. Hələ 2015-ci ildə yanacağın 60 qəpik olduğu vaxtlarda şəhər içi gediş haqqı 2 manat hesablanırdı. İndi yanacağın qiyməti baxmayaraq ki, 1 manatdır, gediş haqqı olduğu kimi, yəni 2 manat olaraq qalıb. Əvvəllər taksilər taksometr vasitəsilə işləyirdi. Taksometr isə sifarişçi taksiyə əyləşən kimi 2 manat gediş haqqı yazırdı. Daha sonra ödəniş sərnişinin getdiyi yola görə hesablanırdı. Məsələn,



Uşaq Xəstəxanasından mikrorayona qədər məsafəni taksometr 4 manatdan yuxarı göstərici ilə hesablayırdı. Bu isə sərnişinlərin narazılığına səbəb olurdu. Sərnişinlərin şikayətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin qərarı ilə 2015-ci ildən taksometrlərdən istifadə etmədik. Vahid bir məbləğ ilə fəaliyyət göstərdik. Məsələn, şəhər daxilində gediş haqqı 2 manat, şəhərdən hava limanına 5 manat və sair. Ötən ildən qərar verildi ki, yenidən taksometrlər işə salınsın. Baxmayaraq ki, biz taksometr cihazı vasitəsilə fəaliyyət göstərməliyik, amma müştəri taksometrin hesabladığı gediş haqqından narazı qaldığı üçün həmin məbləği onlara təklif edə bilmirik. Sürücü deyir: – Bildiyiniz kimi, bir neçə il əvvəl Naxçıvanda "288 Taksi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradıldı. Biz sürücülər də sifariş sayımızın çoxalması üçün həmin xidmətə qoşulduq. Hazırda "288 Taksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə qoşulan yüzlərlə taksi var. Gün ərzində elə olur ki, taksi xidməti tərəfindən sürücüyə 1 sifariş belə təklif olunmur. Sifariş olduqda isə şəhər daxilində ərazilərdən olur. Əgər sürücü gün ərzində 3 sifariş qəbul edirsə, 6 manat qazancı olur, bunun da 12 faizini xidmətə ödəyir. Biz sürücülər aylıq qazancımızın 60-70 manatını vergi, sosial, icbari tibbi sığorta və avtomobilin tələb etdiyi digər xərcləri qarşılayırıq. Bildiyiniz kimi, burada taksi sürücüləri vahid forma ilə fəaliyyət göstərir. İstər geyim xərci olsun, istərsə də digər bütün xərclər hər biri sürücü tərəfindən ödənilir. Yəni Naxçıvanda taksi sürücüsünün əziyyəti özünə qalır. Bu isə Naxçıvanda taksi sayının çox, əhalinin az olmasından, xüsusilə də burada hələ də taksi mədəniyyətinin formalaşmamasından irəli gəlir.

Formadan söz düşmüşkən onu da qeyd edim ki, Naxçıvanın isti iqlim şəraiti hər kəsə məlumdur. Bu biz sürücülər üçün həssas məvzulardan biridir.

Yay fəslində məcburən uzunqol köynək və qalstukda çalışmağımız da bizə çətinlik yaradır. Həm gərgin iş rejimi, həm də rahat olmayan geyim gərginliyimizi daha da artırır. Biz vahid geyim formasının əleyhinə deyilik, sadəcə, daha rahat geyimlə xidmət göstərmək istəyirik.

"Baxmayaraq ki, Bakı şəhərində taksi xidmətlərinin təklif etdiyi gediş haqqı buradan iki-üç dəfə aşağıdır, lakin oradakı sürücülər bundan narazı deyil. Bəs bunu nə ilə əlaqələndirirsiniz?" – sualını sürücü belə cavablandırdı: – Mən sizinlə sürücü kimi yox, bir vətəndaş kimi söhbət edirəm. Sərnişinlərin narazılıqlarını hər birimiz anlayırıq. Məsələn, 500 metr məsafəyə sərnişin Naxçıvanda 2 manat gediş haqqı ödəyirsə, Bakıda 60-70 qəpik ödəyir. Amma nəzərə alaq ki, Bakıda əhali sayı çox olduğundan sürücü sərnişini apardığı ünvanda başqa bir sifariş qəbul edir. Yəni getdiyi yolu boş qayıtmır. Bu isə, təbii ki, sürücüyə, necə deyərlər, xeyir edir. Amma burada elə deyil, sürücü getdiyi ünvandan boş qayıdır.

Mövzu ilə bağlı "288 Taksi" Məhdud Məsuliyyətli Cəmiyyəti xidmətinin direktoru ***Rasim İsmayılov***la da söhbət etdik. Deyir ki, bir neçə il əvvəl Naxçıvanda 500-ə yaxın taksi fəaliyyət göstərirdi. Bu xidmət növünə olan tələbat nəzərə alınaraq elektron taksi xidməti yaradıldı. Xidmətə 300-ə yaxın taksi qoşuldu. Rabitə Nazirliyində taksi xidməti üçün quraşdırılan server sürücülər və xidmət operatorları arasında əlaqə qurmağa şərait yaradır. Sürücülər mobil telefonlarına "SKAT" proqramı yükləyərək xidmət operatoruna qoşulub sifarişlər qəbul edirlər. Həmin proqram sifariş qəbul edilən ünvandan 500 metr ərazidə yerləşən taksilərə bildiriş göndərir. Amma, təəssüf ki, bir çox sürücülər sifarişi rədd edirlər. Çünki 2 kilometr məsafəyə 2 manat 80 qəpik dəyərində gediş haqqının az olduğunu və sifarişin onlar üçün faydalı olmadığını deyirlər. Bu halda müştərilərdən ünvanımıza gecikmə ilə bağlı şikayətlər daxil olur. Sizin kimi digər vətəndaşlar da ölkədə fəaliyyət göstərən taksi xidmətləri sərnişinlərə "288" taksi xidmətindən daha münasib gediş haqqı təklif etdiyini düşünür. Düzdür, bu, danılmazdır. Amma onu da nəzərə almaq lazımdır ki, Naxçıvanda fəaliyyət göstərən sürücülər sərnişinlərə daha sərfəli gediş haqqının təklif olunması ilə razılaşmır. Bunun üçün də sürücülərin də fikrini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən də təsdiq edilən Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin Qərarına əsasən tarif qiyməti tətbiq edilir. "SKAT" proqramı vasitəsilə sifarişin dəyəri həmin tarif qiymətinə əsasən avtomatik hesablanır və həmin proqram tariflərin rahat tənzimlənməsi işini də həyata keçirir. Proqram 2 kilometrə qədər məsafəni 2 manat 80 qəpik, 2 kilometrdən 7 kilometrədək məsafəni isə hər kilometr üçün 41 qəpikdən hesablayır. Məsafə artdıqca hər kilometr üçün gediş haqqı aşağı məbləğlə hesablanır.

Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru onu da bildirdi ki, Naxçıvanda yalnız bir taksi xidməti fəaliyyət göstərdiyi üçün burada rəqabət yoxdur. Bu halda sürücülər düşünürlər ki, həm xidmət, həm də sərnişinlər onlardan asılıdır və bəzən də bunu açıq-aydın dilə gətirirlər. Ona görə də elə hallar olur ki, xidmətin dediyi məbləği nəzərə almadan müştərilərə qiymət oxuyurlar. Bu halda xidmət operatorlarına müştərilər tərəfindən şikayətlər daxil olur. Belə olduğu halda Dövlət Nəqliyyat Xidməti tərəfindən sürücülər haqqında lazımi tədbirlər görülür. şinBir jurnalist olaraq çalışdıq ki, sərni

lərin narazılığına səbəb olan taksi xidməti və onları qane etməyən gediş haqları barədə mövzuya elə xidmət əməkdaşları tərəfindən açıqlama gətirək. Amma gəldiyimiz qənaət odur ki, bu sahədə olan problem nə xidmətin, nə də taksi sürücülərinin günahıdır. Çünki azad bazar iqtisadiyyatının əsas tələblərindən biri istehsal və xidmət sahələrində rəqabət mühitinin yaradılmasıdır. Çox, təəssüf ki, taksi xidmətinin fəaliyyəti xidmət sektoru olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasında bu sahə üzrə rəqabət mühiti yaradılmayıb. Bunun isə real və təbii səbəbləri var. Əsas səbəblərdən birincisi vaxtilə kiçik və orta sahibkarlıq müəssisələrinin fəaliyyətinə, yeni iş yerlərinin açılmasına süni maneələrin yaradılması hesabına naxçıvanlıların iş üçün daha böyük şəhərlərə üz tutması və beləliklə də, Naxçıvanda əhali sayının azalmasıdır. Ümidvarıq ki, muxtar respublikamızda son dövrlərdə müşahidə etdiyimiz canlanma yeni iş yerlərinin açılmasına və naxçıvanlıların artıq kənarda deyil, öz doğma diyarında işlə təmin olunmasına gətirib çıxaracaq. Hər kəsə məlumdur ki, əhalinin sıx yaşadığı yerlərdə fəaliyyət göstərən xidmət sektorları da rəqabətə meyilli olur. Rəqabət olan yerdə isə inkişaf və rifah əldə etmək mümkündür. İnanırıq ki, xidmət sektorlarındakı mövcud problemlər tezliklə öz həllini tapacaq, bütün xidmət sahələrində olduğu kimi, taksi xidmətində də bazar iqtisadiyyatının əsas tələbi olan sağlam rəqabət mühiti formalaşacaq, bu isə insanların belə xidmətlərə daha çox üz tutaraq razılıqla istifadə etməsinə gətirib çıxaracaq.

✍ Gülcamal TAHİROVA

## "Erkən nikah ailə institutunun məhvidir" mövzusunda tədbir



*"Erkən nikah ailə institutunun məhvidir" mövzusunda Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Sədərək Rayon İcra Hakimiyyəti tərəfindən tədbir keçirilib.*

Tədbiri Sədərək Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyanın sədri Pərviz Ağayev tədbirdə çıxış edib. Çıxışda qədim tarixə və mədəniyyətə malik olan xalqımızın əsrlərdən bəri yaratdığı zəngin milli-mənəvi dəyərlər, adət-ənənələr, özünəməxsus əhəmiyyətə malik olan ailə dəyərlərindən bəhs olunub.

"Erkən nikah ailə institutunun məhvidir" mövzusunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Elşən Əsədov çıxış edərək bildirib ki, nikah – qanunla müəyyən edilmiş qayda və şərtlərə riayət etməklə bağlanılan, ər-arvad arasında şəxsi əmlak hüquq və vəzifələrini doğuran, qadınla kişinin azad, könüllü və bərabərhüquqlu ittifaqıdır. Nikaha daxil olan gənclər ailə yaratmaqla təkcə bir-birləri qarşısında deyil, eyni zamanda valideynləri, yaxınları və ümumiyyətlə, cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 10-cu maddəsində nikah yaşının 18 olduğu qeyd edilmişdir. Bəzən elə hallar olur ki, gənclərimiz ailə anlayışını kifayət qədər dəyərləndirmədən yaşlarının rəsmi nikah üçün müəyyən edilmiş yaş həddindən aşağı olmasına baxmayaraq, erkən yaşda ailə qurmağa meyilli olurlar. Belə hallar nikah hesab edilmir, şərti olaraq erkən nikah adlanır. Bu da gələcəkdə uşaqların hüquqlarının pozulmasına, onların sağlamlıq və psixologiyalarına güclü təsir göstərir.

Komitənin digər əməkdaşı Elsun Cahangirli "Erkən nikahın fəsadları" barədə çıxış edərək vurğulayıb ki, erkən nikah əsasında qurulan ailələrdə nikahın pozulması, məişət zorakılığı, sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsi, fiziki-psixoloji çətinliklər, təhsildən məhrumedilmə və şəxsi azadlıqların itirilməsi kimi mənfi nəticələr qaçılmazdır.

Sədərək Rayon Polis Şöbəsinin əməkdaşı Ələsgər Məhərrəmov isə Azərbaycan Respublikasında qəbul olunmuş normativ-hüquqi aktların erkən nikah hallarının yaranmasına yol verməyəcəyini qeyd edərək müvafiq qanunvericilikdə nəzərdə tutulan cərimə və cəza tədbirləri haqqında ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarına mövzu ilə bağlı broşürlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Şagirdlərin qış tətili səmərəli təşkil olunacaq



Məlum olduğu kimi, ümumi təhsil müəssisələrində 27-31 yanvar tarixlərində 5 günlük qış tətili müəyyən edilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən nazirliyə birbaşa tabe 35 məktəbdənkənar təhsil müəssisəsinin hər birində qış tətili dövründə şagirdlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər planları hazırlanıb. Şagirdlər məktəbdənkənar təhsil müəssisələrində yaradılan innovativ dərnəklərdə bilik və bacarıqlarını artırmaqla yanaşı, öz vaxtlarını səmərəli keçirəcəklər. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Bacarıqlı əllər", "Bijuteriya" dərnəklərinin üzvləri tərəfindən hazırlanan əl işlərinin sərgisi və "Ebru sənəti" dərnəyinin üzvü Baxşəli Aylinin "Könlümün bağçası" adlı fərdi sərgisi təşkil olunacaq. Həmçinin dərnək üzvlərinin Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasına ekskursiyası təşkil olunacaq. Dövlət Film Fonduna ekskursiya zamanı məktəblilər həm də burada uşaq filmlərinə tamaşa etmək şansı əldə edəcəklər. Həmçinin mərkəzin dərnək üzvləri arasında müxtəlif bilik yarışlarının, əyləncəli oyunların keçirilməsi də nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Turist Diyarşünaslıq və Texniki Yaradıcılıq mərkəzləri tərəfindən də bir sıra əyləncəli tədbirlərlə yanaşı, məktəblilərin Naxçıvan Dövlət Tarix, Döyüş Şöhrəti, Milli Dəyərlər muzeylərinə, Hüseyn Cavidin ev-muzeyinə və məqbərəsinə ekskursiyaları təşkil olunacaq.

Rayonlarda fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələri tərəfindən də şagirdlərin tarix-diyarşünaslıq muzeylərinə və digər tarixi abidələrə ekskursiyalarının təşkil olunması, müxtəlif idman yarışlarının və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Televiziya və Radio Verilişləri Redaksiyası da qış tətili günlərində şagirdlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə televiziya və radio proqramlarında uşaq verilişlərinə, filmlərinə və digər bu kimi proqramlara geniş yer verəcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Gəlin açıq danışaq*

# Haqq nazilər, amma üzülməz

Bir aydır ki, hara gedirəmsə, insanlar öz dərdlərini dilə gətirir, bizim də problemimizi yazın, – deyirlər. Çox düşündüm, çox araşdırdım və üç il bundan öncə bəzi kiçik sahibkarların, dərzi, bərbər və digər iş sahiblərinin başına açılan oyunu qələmə almağa qərar verdim. Məlum pandemiya dövründə dövlətimizin insanlara göstərdiyi maddi yardım mənimsənildiyi üçün bəzi sahibkarlar narazı olsalar da, o vaxt bunu dilə gətirə bilməyiblər. Çünkisini onlardan bir neçəsi ilə müzakirə etdik.

***Vüqar İsmayılov*** 32 ildir, Naxçıvan şəhərində kiçik bir mağazada dərzilik edərək ailəsini dolandırır. Gözünün nuru ilə çörəkpulu qazanan bu insan muxtar respublikada baş verən son hadisələrdən sonra dərdini bizə danışır: “2020-ci ildə koronavirus pandemiyası ilə əlaqədar karantin rejimi elan edildiyi üçün işə çıxa bilmirdik. Prezidentimiz həmişəki kimi insanların qeydinə qalmış, müvəqqəti işləyə bilməyən sahibkarlara maddi yardım verilməsi haqqında Sərəncam imzalamışdı. Həmin maddi yardımı almaq üçün banklara üz tutanda bizdən bu məbləğin Naxçıvanda yeni yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü verməyimiz barədə ərizəni imzalamağımızı tələb etdilər. Mən də bundan imtina etdim. Lakin sabahı gün Naxçıvan Şəhər Vergi İdarəsinin adını bilmədiyim bir neçə işçisi işlədiyim dərzi sexinə gələrək həmin sənədə qol çəkməyəcəyim təqdirdə iş yerimi bağlayacaqlarını bildirdi. Məcbur qalıb 300 manata yaxın maddi yardımdan imtina edib, onu fonda bağışlamağım haqqında sənədə qol çəkdim. Biz bu dövlətin vətəndaşıyıq və lazım gəlsə, Vətən üçün canımızı da, varımızı da verməyə hazırıq. Amma başımıza açılan bu fitnə-fəsad, bizdən zorla alınan pullar dövlətin bizə ayırdığı yardım və onun bizdən zorla alınması qanunazidd idi, kaş ki, həqiqətən də, elə həmin vəsait koronavirusla mübarizəyə sərf olunası idi. Həmin vaxt təhdid olunduğumuz üçün heç kimə şikayət edə bilmədik. Sözün açığı, kimdən kimə şikayət edərdik? Artıq bir aydır ki, cənab Prezidentin rəhbərliyi ilə muxtar respublikamızda həyata keçirilən islahatlar, insanların hüquqlarının bərpa olunması, problemlərinin aradan qaldırılması istiqamətində görülən işlər bir daha deməyə əsas verir ki, haqq-ədalət gec də olsa, öz yerini tapır. Biz də məhz bu fikrə əsaslanaraq Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Naxçıvan Baş İdarəsinə qarşılaşdığımız problemlə bağlı müraciət etmişik, ümid edirik ki, nəticəsini tezliklə görəcəyik”.

Digər müsahibim, qadın gözəllik ustası olan ***Fəxriyyə Novruzova*** da eyni problemlə qarşılaşıb həmin dövrdə. Deyir ki, biz də zəhmət çəkir, halal ruzimizi qazanıb evimizə çörək aparırıq. Həmişə müəyyən qadağalara rast gəlmişdik, 2020-ci ildə qarşılaşdığımız qanunsuzluq isə heç bir çərçivəyə sığışmır. Amma qorxu içində olduğumuz üçün heç birimiz səsimizi çıxara bilmədik. Artıq bir ay olar ki, ölkə başçısının iradəsi ilə muxtar respublikada xeyli islahat aparılıb, çox haqqı mənimsənilən insanların dərdinə çarə tapılıb. Bizim də ümidimiz onadır ki, haqqımızı mənimsəyənlərin cəzası verilsin.

Müsahiblərimin siyahısını uzada bilərdim, amma həm hörmətli oxucularımızı yormaq istəmədim, həm də bir çox sahibkarın canındakı qorxu hələ də çıxmadığı üçün adlarının çəkilməsini istəmədilər. İki şəxsin dilə gətirdiyi bu oyunlar həmin günlərdə çox sahibkarın başına gətirilib. Amma heç kim səsini çıxara bilməyib. Çünki kimsə özü ilə bərabər, ailəsinə də problem yaranmasını istəməyib. Sanki repressiya illərindəki kimi bir ailənin bir üzvü başına gələn problemi dövlət başçısına çatdırmaq istəyəndə həmin evin bütün üzvləri “vurulurdu”. Bəli, biz naxçıvanlılar əsrlərboyu bir çox çətinliklərə sinə gərmişik, düşmənə, aclığa baş əyməmişik, amma təəssüflər olsun ki, bir çox istismarlara dözməli olmuşuq. Nəhayət, uzun illərdən sonra ədalətin zəfər çalmasını öz gözlərimizlə görüb, dövlətə daha yüksək etimadla, nikbin ruhla yaşayıb-yaratmağa həvəslənmişik.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Bölgələrdə idmanın inkişafına dəstək artırılır



Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı prioritet istiqamətlərdəndir. Ölkəmiz bu sahədə görülən işlər və qazanılan nailiyyətlər sayəsində beynəlxalq idman aləminin rəğbətini qazanıb. Prezident cənab İlham Əliyevin 2022-ci ilin idman yekunları ilə bağlı tədbirdə səsləndirdiyi tövsiyə və tapşırıqları ilə bu sahədə yeni istiqamətlər müəyyənləşdirilib.

Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu yöndə işlər görülür, gənc nəslin sağlamlığının qorunması və onların idmana cəlbi diqqətdə saxlanılır. Bunun davamı kimi Babək rayonunun Nehrəm qəsəbəsində özəl investisiya əsasında fəaliyyət göstərən idman zalında sərbəst güləş məşqlərinə start verilib. Kütləviliyə zəmin yaradılması, məşqlərin effektivliyi və keyfiyyətinin artırılması, o cümlədən idmanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bura müasir güləş xalçası dəsti və məşqçi-müəllimlə təmin olunub.

Qeyd edək ki, ümumi sahəsi 510 kvadratmetr olan idman zalında hazırda 2 məşqçinin rəhbərliyi ilə 40-dan çox yeniyetmə və gənc güləşlə məşğuldur.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Həkim, rezident və orta tibb işçiləri növbəti təcrübə kurslarına cəlb olunublar

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq nazirliyin tabeliyində fəaliyyət göstərən tibb işçiləri üçün təcrübə kursları təşkil edilir. Hər yeni təqvim ilində iş planına uyğun olaraq əvvəlcədən həkim, rezident və orta tibb işçiləri qeydə alınaraq təcrübələrə cəlb edilirlər. Təcrübə kursları zamanı tibb işçilərinə təyin olunduqları ixtisaslara uyğun vəzifələr haqqında ətraflı nəzəri və praktik təlimlər keçirilir. Təcrübə kurslarının təşkilində məqsəd səhiyyə sistemində ixtisaslaşdırılmış kadr potensialının təkmilləşdirilməsi, tibbi kadrların vəzifələri üzrə daha dərin biliklərə sahib olmaları, əhaliyə daha yüksək səviyyədə tibbi yardımların göstərilməsi və tibbi peşəkarlıq səviyyəsinin artırılmasıdır.



Növbəti təcrübəyə 2023-cü ilin yanvar ayından başlayaraq cədvələ uyğun müxtəlif zaman çərçivəsini əhatə etməklə start verilib. Belə ki, hazırda bir həkim-stomatoloq Bakı şəhərində, bir həkim-ginekoloq, iki mama-tibb bacısı Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsdə, bir rezident, iki feldşer, bir fizioterapevt və bir məntəqə müdiri Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsdə, bir rezident Naxçıvan Diaqnostika Müalicə Mərkəzi publik hüquqi şəxsdə, üç diş texniki Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəz publik hüquqi şəxsdə, altı peyvənd-tibb bacısı isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası publik hüquqi şəxsdə öz ixtisasları üzrə təcrübədədirlər.

Qeyd edək ki, təcrübə kurslarını başa vuran tibb işçiləri kursu başa vurduqlarına dair arayışla təmin olunurlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Əcnəbi tələbələrin Şahbuz səfəri



İlbəil təşkil olunan ekskursiyalar sayəsində istər yerli, istərsə də əcnəbi gənclər muxtar respublika ilə bağlı geniş informasiya əldə edir, yaradılan şəraitdən, mövcud imkanlardan xəbərdar olurlar. Xüsusən də əcnəbi tələbələrin fərqli bir mədəni mühitlə tanışlığı, dünyagörüşlərini zənginləşdirməsi mühüm əhəmiyyət daşıyır. Yaşadıqları ölkələrdə məhz onların təqdimatından asılı olaraq diyarımızla bağlı ilkin təsəvvür formalaşır.

Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin əcnəbi tələbələri üçün Şahbuz rayonunda yerləşən turizm əhəmiyyətli məkanlara ekskursiya təşkil olunub. Muxtar respublikanın turizm potensialı, xalqımızın milli adət-ənənələri və zəngin mədəni irsinin tanıdılması, tarixi gerçəkliklərin təbliği, o cümlədən ictimai-siyasi şəxsiyyətlərin həyat və yaradıcılığının öyrənilməsi məqsədi daşıyan ekskursiyada 20 tələbə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilən ekskursiya çərçivəsində qonaqlar Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahbuz Dövlət Təbiət Qoruğu, Batabat Astrofizika Rəsədxanası, Ağbulaq İstirahət Mərkəzi və buz örtüyünə bürünən məşhur Batabat gölü ilə yaxından tanış olub, Ağbulaq Xizək Mərkəzində kanat gəzintisinə qoşulublar.

İştirakçılar sosial şəbəkələrdə paylaşım məqsədilə fotolar, xatirə şəkilləri çəkiblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Müsahibə mərhələsi keçirilib



102 vakant vəzifənin çıxarıldığı və Naxçıvan Musiqi Kollecinin ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə baş tutan müsabiqənin test mərhələsində iştirak üçün 37 namizəd müraciət edib. Test mərhələsində uğur qazanan 30 namizədin iştirakı ilə keçirilən müsahibə mərhələsinin təşkili üçün 3 nəfərdən ibarət tərkibdə – mərkəzin 1 nümayəndəsi, 1 müstəqil ekspert və Naxçıvan Dövlət Universitetinin 1 nümayəndəsi daxil olmaqla müsahibə komissiyası yaradılıb.

Müsahibə namizədin vakant vəzifəyə uyğunluğunu müəyyən etmək üçün müsahibə komissiyasının ona suallar, tapşırıqlar verməsi və namizədin həmin sualları cavablandırması, müsahibə komissiyası üzvlərinin müşahidə aparması və qısa izahlar verməsi yolu ilə həyata keçirilib.

Bu mərhələdə iştirak edən 27 namizəddən 24-ü uğur qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Birincilik başa çatıb

Naxçıvan Şahmat Mərkəzində “Şahmat beyinin gimnastikasıdır!” devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin V-VIII sinif şagirdlərindən ibarət komandaları arasında şahmat birinciliyi keçirilib.



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin rəhbərlik etdiyi birincilikdə 16 tam orta məktəbin komandası, hər komandada isə 4 oğlan, 2 qız olmaqla, ümumilikdə, 96 şagird iştirak edib. Birincilikdə komandalar olimpiya sistemi üzrə mübarizə aparıblar.

Yarışın yekun nəticəsinə əsasən 8 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 7 nömrəli tam orta məktəbin komandası ikinci, 3 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda iştirakçılara diplom və fəxri fərmanlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyi
## Naxçıvan Dövlət Universiteti
### *aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir*

***Dekan vəzifəsini tutmaq üçün***

1. Xarici tələbələr üzrə dekanlıq

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Azərbaycan tarixi
2. Elektroenergetika mühəndisliyi
3. Elektronika və informasiya texnologiyaları
4. İnformatika
5. Rus və Şərq dilləri
6. İngilis dili və metodika
7. Musiqi təlimi
8. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
9. Coğrafiya
10. Baytarlıq

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1. Fortepiano kafedrası – dosent – 3 yer, baş müəllim – 1 yer
2. Musiqi təlimi kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
3. Orkestr alətləri və dirijorluq kafedrası – dosent – 1 yer, baş müəllim – 2 yer
4. Xalq çalğı alətləri kafedrası– dosent – 1 yer
5. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
6. Biologiya kafedrası – dosent – 1 yer
7. Kimya kafedrası – professor – 1 yer, baş müəllim – 1 yer (0,5 ştat)
8. Coğrafiya kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
9. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – baş müəllim – 1 yer
10. Pedaqogika və psixologiya kafedrası – baş müəllim – 1 yer
11. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası – dosent – 1 yer
12. Ümumi riyaziyyat kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
13. İnformatika kafedrası – baş müəllim – 1 yer
14. Ümumi və nəzəri fizika kafedrası – dosent – 1 yer (0,5 ştat)
15. Rus və Şərq dilləri kafedrası – baş müəllim – 2 yer
16. İngilis dili və metodika kafedrası – baş müəllim – 1 yer
17. İngilis dili və tərcümə kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
18. Əczaçılıq və biokimya kafedrası – dosent –1 yer, baş müəllim –3 yer, müəllim – 2 yer
19. İqtisadiyyat kafedrası – baş müəllim – 2 yer
20. Roman-german dilləri kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
21. Hüquq fənləri kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
22. Beynəlxalq münasibətlər kafedrası – dosent – 1 yer (0,5 ştat)
23. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası – müəllim – 1 yer
24. Mühasibat uçotu və maliyyə kafedrası – dosent – 1 yer
25. Təməl tibb fənləri kafedrası – müəllim – 1 yer, müəllim – 1 yer (0,5 ştat)

***Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.***

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

## Elan

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti avtomobil nəqliyyatlarının ehtiyat hissələrinin alınması və təmir xidmətlərinin göstərilməsi üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Xidmətə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Avtomobil nəqliyyatlarının ehtiyat hissələri və təmir xidmətləri haqqında məlumat*

Qeyd olunmuş sənədlər toplusu 6 fevral 2023-cü il, saat $11^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə təqdim etmək lazımdır.

***Əlaqə telefonu: (036) 550-69-66***

## *İtmişdir*

Naxçıvan şəhəri, “İstiqlal” küçəsində yerləşən “Çay evi”nin 14 iyul 1998-ci il tarixdə verilmiş texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Əsgərov Hikmət Yunis oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, $20^A$ məhəlləsi, 73 nömrəli evdə yaşayan Orucov Rafiq Bayram oğlunun adına olan JN-$460^A$ inventar nömrəli, 10400002 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərində yaşamış Əliyeva Fatma Səfər qızının adına verilmiş 729 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 64